**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ FEİL

*(Bakalavriat səviyyəsi üçün)*

**BAKI - 2023**

**Tərtibçi** **Mahirə Hüseynova**
filologiya elmləri doktoru, professor

**Elşad Abışov**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Elmi redaktor** **Könül Səmədova**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Rəyçilər** **Nərgiz Hacıyeva**
filologiya elmləri doktoru, dosent

**Könül Həsənova**
ADPU-nun elmi işlər üzrə dekan
müavini

## Fənnin xarakteri

Azərbaycan Dövlət Pedaqoji Universiteti Filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasında seçmə fənn kimi tədris olunan bu dilçilik bölməsi nəzəri dilçiliyin feillə bağlı anlayışlar sistemini əhatə etməklə fundamental tədqiqatlar əsasında müasir Azərbaycan dilində feil bəhsinin müasir səviyyəsinin spesifikasını öyrənir.

## Fənnin məqsədi

Tələbələrə Azərbaycan dilinin morfoloji quruluşunda feilin yeri və rolu haqqında ətraflı məlumat vermək, feilin lüğəvi və qrammatik məna növləri təsirlik, növ, inkarlıq, tərz, zaman, şəkil, şəxs və s kimi kateqoriyaları ilə bağlı bilikləri yeni faktlarla genişləndirmək, kateqorial şəkilçilərin dildə işlənmə ardıcıllığını qanunauyğunluq əsasında mənimsətməyə çalışmaq, dilin lüğət tərkibinin zənginləşməsində feillərin əhəmiyyətini diqqətə çatdırmaq xalqımızın etnomədəni dəyərlərinin əsas göstəricisi kimi təzahür edən frazeoloji vahidlərin dildə yaranma qanunauyğunluqlarını və onların feillərlə əlaqəsini aydınlaşdırmaq, habelə feillərin quruluşu və sintaktik vəzifələri barədə ətraflı təsəvvür yaratmaq.

## Fənnin vəzifələri

- tələbələrdə Azərbaycan dilinin morfoloji quruluşu haqqında təsəvvür formalaşdırmaq, dilin lüğət tərkibində geniş işləklik imkanlarına malik olan feil bəhsi və onun digər nitq hissələri barədə müfəssəl təsəvvürün formalaşmasına nail olmaq,
- dilin inkişafının cəmiyyətin inkişafı ilə bilavasitə bağlı olduğunu diqqətə çatdırmaq,

- feil kateqoriyaları (təsirlik, növ,inkarlıq,zaman, tərz, şəkil,şəxs) və onların özünəməxsus xüsusiyyətlərinin elmi əsaslarını müəyyənləşdirmək,
- feilin struktur xüsusiyyətləri, həmçinin mürəkkəb feillərlə frazeoloji birləşmələrin əlaqə və münasibətləri haqqında tam təsəvvür formalaşdırmağa nail olmaq,

**Fənnin tələbləri**

- Bu fənn yeni təlim metodlarına əsaslanmaqla tələbələri problemin müstəqil həllini tapmağa həvəsləndirmək, onları yaradıcılıq prosesinə cəlb etmək, tədris prosesində innovativ metodları stimullaşdırmaq, Azərbaycan Respublikasının dövlət dilinin saflığının qorunmasında və inkişafında feilin rolunu əsas tələb kimi müəyyən edir.

**Fənnin təlim nəticələri**

Müasir Azərbaycan dilinin morfoloji quruluşunun əsas xüsusiyyətlərini şərh edir:

- Feillərin lüğəvi məna növləri və onların əsas xüsusiyyətlərini izah edir:
- Dilin milli orjinallığının qorunmasında feillərin mühüm rola malik olduğunu qeyd edir:
- Feillərin qrammatik məna növlərini və onların formalaşmasında qrammatik növ şəkilçilərinin rolunu mənimsəyir:
- Feilin tərz kateqoriyası və onun dildə rolunu qanunauyğunluq əsasında analiz edir:
- Feilin struktur xüsusiyyətlərini müəyyənləşdirməyin vasitə və yollarını əsaslandırır:
- Feilin kateqoriyalı şəkilçilərinin söz yaradıcılığında rolunu şərh edir:
- Şəxsli və şəxssiz feillərin sintaktik funksiyalarını analiz edir:

- Obyektiv və qrammatik zamanların oxşar və fərqli xüsusiyyətlərini dəqiq müəyyənləşdirir:
- İdi, imiş və isə hissəciklərinin feil şəkillərinin mürəkkəbi kimi işlənmə məqamlarını müəyyənləşdirir :
- Feilin sadə şəkillərinin formalaşma xüsusiyyətlərini izah edir:

**Yoxlama forması**

(imtahan, yoxlama və kurs işi, müstəqil işlər necə aparılacaq). Təhsilalanların bilik və bacarıqları təlimata uyğun olaraq təcrübi və ya laboratoriya sorğuları, ayrı-ayrı mövzular üzrə test tapşırıqlarının, məruzə, referat və s işlərin yerinə yetirilməsi, kollokviumlar və imtahan vasitəsilə yoxlanılacaqdır.

**Fənn üzrə saatların bölgüsü**

Feil seçmə fənn kimi filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında təhsil alan tələbələrə III kursun II semestrində 60 saat ( 30 saat mühazirə, 30 saat seminar) həcmində tədris olunur . Fənnə verilən saatların həcmi mütəxəssis hazırlığı üzrə dövlət standarlarının tələblərinə uyğundur . Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik məşğələlərdir. Məşğələnin əsas forması ilə yanaşı, tələbələrin auditoriyadan kənar yerinə yetirdiyi (mərhələli formada müəyyənləşdirilən) sərbəst işlər də fənnin dərindən mənimsənilməsinə əhəmiyyətli dərəcədə kömək edir

## Mövzuların saat bölgüsü

| Sıra № | Mövzular | O cümlədən | |
|---|---|---|---|
| | | **Mühazirə** | **Seminar** |
| 1. | Seçmə fənn feilin mövzusu, məqsədi və vəzifələri | 2 saat | - |
| 2. | Feli bir nitq hissəsi kimi səciyyələndirən xüsusiyyətlər | 2 saat | - |
| 3. | Sadə feillər və onların xüsusiyyətləri | 2 saat | 2 saat |
| 4. | Düzəltmə, mürəkkəb feillər və onların xüsusiyyətləri | 2 saat | 2 saat |
| 5. | Feilin lüğəvi məna növləri | 2 saat | 2 saat |
| 6. | Təsirlilik və təsirsizlik kateqoriyası | 2 saat | 2 saat |
| 7. | Feilin qrammatik məna növləri | 2 saat | - |
| 8. | Feilin zaman kateqoriyası | 2 saat | 2 saat |
| 9. | Feilin zaman kateqoriyası | 2 saat | - |
| 10. | Feildə tərz kateqoriyası. Feilin formaları | 2 saat | 2 saat |

| | | | |
|---|---|---|---|
| 11. | Feilin təsriflənən formaları | 2 saat | - |
| 12. | Feilin təsriflənən formaları | 2 saat | - |
| 13. | Məsdər | 2 saat | - |
| 14. | Feili sifət | 2 saat | 2 saat |
| 15. | Feili bağlama | 2 saat | 1 saat |
| | ***Cəmi*** | ***30*** | ***15*** |

## Giriş

Azərbaycan dilinin morfologiyasında feilin xüsusi yeri vardır. Feil çoxsahəli, çoxşaxəli, çoxkeçidli bir nitq hissəsidir. Feil özünün leksik-semantik, morfoloji, sintaktik, üslubi, fonetik və digər xüsusiyyətləri ilə, bu xüsusiyyətlərin zənginliyi, rəngarəngliyi, fərdiliyi ilə başqa nitq hissələrindən əsaslı şəkildə seçilir və bu baxımdan böyük əhəmiyyət kəsb edir. Feillərin həcm etibarilə morfologiyanın böyük bir hissəsini təşkil etməsi, başqa nitq hissəsinə nisbətən daha çox kateqoriyaya malik olması, dilin qədim izlərini, milli orijinallığını daha yaxşı mühafizə edib saxlaması, omonim, sinonim, antonim və çoxmənalılığın yaranması baxımından fərqlənməsi, frazeoloji birləşmələrin yaranmasında, cümlənin cümlə olmasında, fikrin başqalarına çatdırılmasında xüsusi rol oynaması, fonetik cəhətdən qədim söz köklərini, söz yuvalarını yaxşı qoruyub saxlaması, kateqoriyalarında qoşaların mövcudluğu, iki kateqoriya

üçün eyni şəkilçilərin xidmət etməsi və s. bu kimi bir çox xüsusiyyətlər feili dərindən öyrənməyi tələb edir.

Bütün bunları nəzərə alıb feil bəhsini xüsusi kurs şəklində tədris etmək dilimiz və tariximiz üçün çox faydalıdır. *Biz burada dilçiliyimizdə ən çox mübahisəyə səbəb olan mövzulara (feildə təsirlilik-təsirsizlik kateqoriyasına və feili-sifət mövzusuna) daha çox yer verəcəyik.*

## Mövzuların məzmunu

**Azərbaycan dili feillərini öyrənərkən aşağıdakı məsələlərə xüsusi diqqət yetirmək zəruridir.**

Elmin, texnikanın, mədəniyyətin inkişafı, iqtisadi, siyasi, mədəni əlaqələrin genişlənməsi nəticəsində lüğət tərkibimizdə sözlərin artması, bunun hesabına dilimizdə düzəltmə və mürəkkəb sözlərin artması.

Azərbaycan dilinin morfoloji bölgüyə görə iltisaqi, geneoloji bölgüyə görə türk dilləri ailəsinə daxil olması və feilin leksik-semantik, fonetik, qrammatik və digər əlamətlərinin müəyyənləşdirilməsində bu bölgüləri bilməyin zəruriliyi və əhəmiyyəti.

Azərbaycan dilində danışanların, ondan öz doğma dili kimi istifadə edənlərin yalnız Azərbaycanda deyil, xarici ölkədə də yaşaması, feillərin tam və dəqiq şərhi üçün arxaik olub-olmaması, hansı dialekt və şivədə qalıb-qalmaması, nə şəkildə işlənməsi, məcazi məna alıb-almaması, fonetik dəyişikliyə uğrayıb-uğramaması və s. bu coğrafi mənzərənin nəzərə alınmasının zəruriliyi.

Azərbaycan dili feillərinə aid xüsysiyyətləri dəqiq müəyyənləşdirmək, dilimizdəki güləşmək, qarğamaq, qurşamaq, suvarmaq, utanmaq, anşırmaq, çağırmaq, saymaq, sanmaq, bəyənmək, əsirgəmək, yumşalmaq və bu kimi feillərin leksik-semantik və qrammatik inkişafı.

Feillərin leksik-semantik, fonetik və qrammatik inkişafını aydınlaşdırmaq, dəqiqləşdirmək işində digər türk dillərinin (türk,

türkmən, qaqauz, özbək, tatar, uyğur, başqırd, qırğız, qaraçay-balkar, noqay, altay, qazax, qaraqalpaq, qumıq, tuvin, xakas, şor, karaim, çuvaş, yakut və s.) və türk dillərinə yaxın olan dillərin rolu. Feilə aid ayrı-ayrı məsələlərin öyrənilməsində tarixi-müqayisəli metodun əhəmiyyəti. Dildəki bu və ya digər məsələnin öyrənilməsində qohum və qonşu dillərin rolu. Türk və şumer dillərindəki paralellərin mənzərəsi.

Azərbaycan dili feillərinə məxsus əlamətləri müəyyənləşdirmək işində dilçiliyin digər fənlərlə (məntiq, ədəbiyyat, tarix, antropologiya, coğrafiya, psixologiya, fiziologiya, fizika və s.) və öz şöbələrinin (leksikologiya, etimologiya, semasiologiya, frazeologiya, leksikoqrafiya, fonetika, orfoepiya, orfoqrafiya, dialektologiya, qrammatika, üslubiyyat və s. ) bir-biri ilə əlaqəsini öyrənməyin rolu, əhəmiyyət və zəruriliyi. Bu məsələdə tarixi mənbələrə müraciət etməyin, müqayisələr aparmağın vacib olması.

Feilin leksika, semasiologiya, frazeologiya, leksikologiya, fonetika, morfologiya, sintaksis və üslubiyyatda yeri. Ayrı-ayrı bəhs və mövzularla (ismin halları, idarə əlaqəsi, vasitəsiz tamamlıq, cümlənin genişlənmiş üzvləri, frazeoloji birləşmələr, omonim, sinonim, antonim və çoxmənalı sözlər və s.) bağlılığı. Azərbaycan dili feillərində iki samitin yanaşı işlənə bilməsi faktları (sürtmək, dartmaq). İzahlı lüğətlərdə feillərin izahına daha çox yer verilməsi səbəbi. Köhnəlmiş feil və feil şəkilçilərinin dialekt və şivələrdə izləri və s.

Feilin köməyilə dilçiliyin ayrı-ayrı sahələrinə aid bir sıra məsələlərin aydınlaşması və dəqiqləşməsi. Məsələn, ismin təsirlik halı ilə omonim olan mənsubiyyət şəkilçisinin, vasitəli tamamlıqlarla vasitəsiz tamamlıqların fərqləndirilməsi. İsim, sifət, say, əvəzlik və zərfin sözü təsirlik halda idarə edə bilməməsi, feildə bunlardan fərqli xüsusiyyətlərin olması və s.

## Azərbaycan dili feillərinin başlıca əlamətdar cəhətləri və nitq hissələri içərisində yeri.

Feillər Azərbaycan dilinin və bütün türk dillərinin morfoloji quruluşunu qoruyub-saxlayan bir nitq hissəsi kimi. Feillərin türk dillərinin inkişafında baş vermiş bir sıra qanunauyğunluqları əks etdirən nitq hissəsi olması.

Feil və onu bir nitq hissəsi kimi fərqləndirən əlamətlər. Feilin xarakterik xüsusiyyətləri. Feil sözünün mənşəyi və onun termin mənası ilə digər mənaları arasında fərqin olması. Hərəkət sözünün geniş mənada iş, hal, vəziyyət sözlərini əvəz edə bilməsi.

Hərəkət bildirən sözlərin dilimizdə feil adlanan nitq hissəsinə daxil edilməsi. Bunun fəlsəfi baxımdan da qanunauyğun bir hal olması. Feilin lüğəvi məna növlərinin - hərəkət feilləri, iş feilləri, hal-vəziyyət feilləri, nitq və idrak prosesi ilə bağlı feillərin mənzərəsi. Feilin quruluşca növləri. Sadə feillər. Düzəltmə feillər. Məhsuldar və qeyri-məhsuldar, omonim və sinonim feil düzəldən şəkilçilər. Mürəkkəb feillər və onların tipləri.

Morfologiyanın böyük bir hissəsini təşkil edən, onun ən böyük bəhsi olunan feilin çoxkateqoriyalı nitq hissəsi olması. Bu kateqoriyaların feildə kompleks şəkildə, toplu halda öz ifadəsini tapması. Leksik, fonetik, morfoloji, etimoloji xüsusiyyətlərinin fərdiliyi və rəngarəngliyi cəhətdən feillərin başqa nitq hissələrindən fərqlənməsi.

Feil kateqoriyalarının xüsusi olması.

Bu kateqoriyaların yeri və düzülüşü.

zaman

Təsir+növ+inkarlıq

Şəxs+kəmiyyət

forma

Feil kateqoriyalarının çoxunun qoşalıq təşkil etməsi. Buradakı qanunauyğunluqlar. Qoşalıq təşkil edən kateqoriyalar haqqında mübahisələr. Təsir və növ, zaman və forma kateqoriyalarının qoşalığı məsələsi. Tərz kateqoriyası, bunun növ, təsir kateqoriyaları ilə əlaqəsi. Tərz yaradan şəkilçilər. Tərzin leksik, morfoloji və sintaktik yolla yaradılması. İki nitq hissəsinin xüsusiyyətini özündə birəşdirən məsdər (feil-isim), feili-sifət (feil-sifət) və feili bağlamanın (feil-zərf) yalnız feilə məxsus olması. Digər nitq hissələrində belə törəmə kateqoriyaların olmaması. Feil kateqoriyalarının feillə işlənmə yeri. Təsirlilik və təsirsizlik kateqoriyası. Təsirsiz feillərin təsirli və təsirli feillərin təsirsiz feillərə çevrilməsi. Sadə, düzəltmə və mürəkkəb feillərdə təsir kateqoriyasının ifadəsi. Təsirli feil düzəldən şəkilçilər. Həm təsirli, həm də təsirsiz feil düzəldən şəkilçilər. Təsirsiz feil düzəldən şəkilçilər. Həm təsirsiz, həm də təsirli feil düzəldən şəkilçilər. Feildə növ kateqoriyası: məlum, məchul, qayıdış, müştərək-qarşılıqlı, şəxssiz və icbar növ. Növ kateqoriyası ilə təsir kateqoriyasının əlaqəsi. Eyni şəkilçilərin həm təsir, həm növ kateqoriyasına xidmət etməsi.

Feillərdə inkarlıq və onun ifadə vasitələri.

Feillərdə tərz kateqoriyası. Tərz kateqoriyasının ifadə vasitələri.

Feillərdə zaman kateqoriyası, obyektiv və qrammatk zaman anlayışı: keçmiş, indiki və gələcək zaman, feilin lazım, vacib, arzu, şərt formalarını əmələ gətirən şəkilçilərin zamana və modallığa xidməti məsələsi. Feilin zaman və formalarını müəyyənləşdirən xüsusiyyətlər. Eyni şəkilçilərin hər iki kateqoriyaya xidmət etməsi məsələsi.

Feildə şəxs kateqoriyası. Şəxs şəkilçilərinin mənsubiyyət və xəbərlik şəkilçiləri ilə əlaqəsi.

Feillərin hibrid formaları. Məsdər və feili bağlamaların xarakterik əlamətləri.

Feillərin sintaktik vəzifələri.

Dilin milli orijinallığını başqa nitq hissələrinə nisbətən feillərin daha yaxşı mühafizə edib saxlaması. Birhecalı sadə feillərin dilimizin daha qədim sözləri olması. Feil düzəldən şəkilçilərin Azərbaycan dilinə məxsusluğu, alınma olmaması. Düzəltəmə feillərin kökü alınma olduqda feil düzəldən şəkilçilərin onlara Azərbaycan dilinə məxsus çalarlıq verməsi. Mürəkkəb feillərin birinci tərəfi alınma olduqda ikinci tərəfinin mütləq öz qədim sözlərimizdən - feillərdən (məcbur olmaq, bihuş olmaq, təşəkkür etmək, xəcalət çəkmək, divan tutmaq və s. ) olması. Feil kateqoriyasının türk dillərində, o cümlədən Azərbaycan dilində zənginliyi, hərəkətlə bağlı olan sözləri başqa dildən almağa az ehtiyac olması.

Dilimizin lüğət tərkibinin zənginləşməsində feillərin müstəsna rola malik olması. Leksik, morfoloji, sintaktik yolla feillərin artması və 50-dən artıq feil düzəldən şəkilçinin bu sahədə rolu.

Dilimizdəki feillərin əksəriyyətinin çoxmənalı olması (açmaq, almaq, batmaq, vurmaq, düşmək, kəsmək, sürmək, süzmək, çatmaq, çəkmək və s.) feillərin başqa nitq hissələrindəki çoxmənalı sözlərdən məna genişliyinə görə fərqlənməsi. Frazeoloji birləşmələrin əksəriyyətinin feil ilə əmələ gəlməsi.

Omonim feillərin xüsusən adlarla omonim olanların (dad, don, düz, iç, şiş, qat, ağrı, oxu, savaş və s.) dilimizin tarixi inkişaf yolunu, onun qədim izlərini müəyyənləşdirməyə kömək etməsi.

Sinonim və antonim feil cərgələri. Bunun bəzi məsələləri (məs: təsirli və təsirsiz feilləri müəyyənləşdirməyə kömək etməsi).

Azərbaycan dilindəki feillərin fonetik cəhətdən səciyyəvi xüsusiyyətlərə malik olması. Dilimizdə l, n, r, j, z, f samitləri ilə başlanan birhecalı feilin olmaması. m, h, x samitlərinin tək-tək hallarda feilin əvvəlində gəlməsi. Bu məsələnin dilimizin qədim səslərini, qədim sözlərini, səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməyə köməyi. Təkhecalı feildə iki samit yanaşı

gəldikdə bunlardan birinin, əsasən r sonoru olması (dartmaq, qırtmaq, pörşmək, yırtmaq, çırpmaq, örtmək, dürtmək, sərpmək və s.). təkhecalı feillərdəki bu xüsusiyyətlərin dilçiliyimizdə mübahisəli olan təsir və növ kateqoriyasını aydınlaşdırmaqda rolu.

Yanaşı gələn iki samitdən birinin n sonoru olması. Feillərdə yanaşı gələn samitlər: rt, rp, rx, rk, rs, nc, lx, lç, lk.

İki samitin yanaşı gələrək kökə birləşməsi söz yaradıcılığının ən qədim yolu kimi yanaşı gələn iki samitdən birinin, əsasən, sonor olmasının səbəbi

Türk dillərində tarixən mövcud olmuş nq, rz, rç, çs, rt kimi səs birləşmələrinin mövcudluğu barəsindəki fikirlər. Bu cür səs birləşmələrindən sonralar saf fonemlərin yaranması: nq-n+q; rz-r+z; rç-r+ç; çs-ç+s; rt-r+t. Bunların türk dillərində dialekt fərqləri kimi özünü göstərməsi. Türk dillərində r-z; ç-s və s. səs keçidlərinin dialekt fərqlərini yaşatması.

Fikrin başqalarına çatdırılmasında, cümlənin cümlə olmasında rol oynayan əsas amillərini (bitginlik predikativlik, intonasiya, şəxs, modallıq və s.) əsasən, feilin üzərində mərkəzləşməsi.

Feilin fonetik tərkibində, leksik-semantik inkişafında gedən dəyişikliklər və buradakı qanunauyğunluqlar. Bu prosesdə r-z, t-d, l-n, t, k, x fono-morfemlərinin rolu. Eyni məna yuvasından feillərin şaxələnməsi prosesi və buradakı qanunauyğunluqlar. Doydurmaq, doyuzdurmaq tox olmaq və s. mənalı do /to kökündən doğmaq, doğmaq, donmaq, tox olmaq feillərinin şaxələnməsi məsələsi.

Ça-kökündən çalmaq, çapmaq, çaxmaq, çatmaq feillərinin şaxələnməsi. Ça-ilkin kökünün sinkretik mənaları və onun izləri.

Ça-, qo- və bi- sinkretik köklərinin mənaları. Bu sinkretik köklərlərdən şaxələnmiş çarpmaq, çırpmaq...., qonmaq, qopmaq, qoşmaq, barışmaq və s. feilləri.

Sadə feillərin, əsasən, bir və ikihecalı, bəzilərinin isə üçhecalı olması.

Birhecalı feillərin ikihecalı və üçhecalılara nisbətən daha qədim tarixə malik olması bu haqda dilçilərin fikirləri.

İkihecalı və üçhecalı feillərin sonradan formalaşması, bunların tarixən ya düzəltmə, ya da mürəkkəb olması.

Birhecalı feillər Orxon-Yenisey yazılı abidələrində birhecalı kök feillərin heca tipləri; sait, sait-samit; sait-samit, samit-sait-samit; sait- samit- samit tipli köklər.

Orxon-Yenisey yazılı abidələrində ikihecalı feillər: sait- samit- sait; sait- samit- sait- samit; samit- sait- samit- sait; sait- samit- samit- sait; sait- samit- samit- sait- samit; samit- sait- samit -sait- samit; samit- sait- samit- samit- sait; samit- sait- samit- samit- sait tipli köklər.

Orxon-Yenisey yazılı abidələrində birhecalı və ikihecalı feillərin müasir türk dilləri ilə müqayisəsi.

Tarixən tək bir saitdən ibarət kök feillər: u-kökü, ı-kökü; o-kökü; ö-kökü; u kökü; e-kökü; a-kökü. Tək bir sait səsdən ibarət kök fellər: barəsində mövcud fikirlər.

Tarixən söz kökünə və ya söz əsasına əlavə olunmuş səs və şəkilçi qatlarının feilin semantikasında əmələ gətirdiyi dəyişiklik. Amorf quruluşu a-kökünə -t, -x, -l,

-z, -ç, -s şəkilçilərinin qoşulması. "Ayırmaq" mənalı ilkin a-kökündən konkret mənalı at-, az-, ax-, al-, aç-, aş-, as- feillərinin yaranması məsələsi.

Amorf quruluşu u –ilkin kökünə -t, -ç şəkilçilərinin qoşulması.

"Göndərmək, yollamaq" mənasında olan u- sinkretik kökündən *it, iç,* feillərinin yaranması, İ-sinkretik kökünün ad-feil mənasından təşəkkül tapmış sözlər. "Hərəkət" anlamlı ilkin *ke//kə//ki//kö* ilkin köklərinə *-t, -l, -r, -z, -ç* şəkilçilərinin qoşulması: getmək, gəlmək, girmək, gəzmək, köçmək feillərinin təşəkkülü.

*Sı, si, su, sü* – ilkin kökündən sıxmaq, sığamaq, sınmaq, sızmaq, süzmək feillərinin yaranması. *Sı-* ilkin kökünün fono-semantik variantları. Bu ilkin kökün izləri: çin, tunqus, mancur və s. dillərdə izləri.

*Sa-, so*, ilkin kökündən *sormaq, sağmaq, soymaq, soğmaq, salmaq* feillərinin əmələ gəlməsi. So- ilkin kökünün yapon tunqus-mancur, hind-avropa dillərində izləri.

*Ba*- ilkin kökündən bağlamaq, basmaq, batmaq və s. bu kimi fellərinin təşəkkülü. *Ba*- ilkin kökünü fono-semantik variantlarının izləri.

*Ça*- ilkin kökdən yarananlar: *çaxmaq, çalmaq, çapmaq...*

Birhecalı sadə feillərinin fonetik tərkibi və bunların xarakterik cəhətləri:

1. Saitlə başlayıb samitlə qurtaran və tərkibi iki səsdən *(sm)* ibarət olan feillər. 2. Saitlə başlayıb samitlə qurtaran və tərkibi üç səsdən *(s-sm-sm)* ibarət olan feillər. 3. Samitlə başlayıb, samitlə qurtaran və tərkibi iki səsdən *(sm-s)* ibarət olan feillər. 4. Samitlə başlayıb samitlə qurtaran və tərkibi 3 səsdən *(sm-s-sm)* ibarət olan feillər. 5. samitlə başlayıb, samitlə qurtaran və tərkibi dörd səsdən *(sm-s-sm-sm)* ibarət olan feillər.

Samit-sait tipli birhecalı feillərin fono-semantik inkişafı, Samit-sait tipli kök feillərinin söz yaradıcılığında tarixən fəal rol oynaması.

Sait-samit-samit heca tipli birhecalı feillərin fono-semantik inkişafı: *örtmək, ölçmək, artmaq, ürkmək, ülkmək, ürpmək* feilləri. Bu feillərin təşəkkül etdiyi ilkin köklər onun izləri.

Sait-samit heca tipli birhecalı feillərin fono-semantik inkişafı. Bu heca tipində olan feillərin ilkinliyi barəsində mövcud fikirlər.

Samit-sait-samit heca tipli birhecalı feillərin təşəkkülü ilə bağlı mövcud fikirlər.

Samit-sait-samit-samit heca tipli birhecalı feillərin fono-semantik inkişafı. Bu heca tipində olan birhecalı feillərin təşəkkül etdiyi ilkin köklər.

**İkihecalı sadə feillərin tipləri**

1. Kök və şəkilçisi tam qovuşan ikihecalı sadə feillər.

2. Kök və şəkilçisi qaynayıb-qovuşma prosesində olanlar. Kök və şəkilçisi qaynayıb-qovuşma prosesində olan aldan, ötür, yetir və s. feillər, köklə şəkilçisi tam qovuşan ağnamaq, ağrımaq, ləlimək, ayırmaq, uzanmaq, qışqırmaq, tapdamaq, utanmaq və s. ikihecalı feillər.

1.İkihecalı feillərin birhecalı feil köklərindən təkamül etməsi. İkihecalılığa doğru inkişafın baş vermə səbəbləri. İkihecalılıqda xarakterik qanunauyğunluqlar. İkihecalılığın yaranmasında ilkin köklərə qoşulmuş –z, -y, -m, -n, -r, -x, -ş, -p, -b, -l, -c, -t, -v, -d və s. ünsürlərin-şəkilçilərin oynadığı rol. İkihecalı fellərin dilimizdə azlığı köklə ona artırılmış hissələrin birikmə, bitişmə prosesində olması.

Fikrin başqalarına çatdırılmasında cümlənin cümlə olmasında rol oynayan əsas amillərin (bitkinlik, predikativlik, intonasiya, modallıq, şəxs və s. ) əsasən feildə mərkəzləşməsi.

## AZƏRBAYCAN DİLİNDƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR

### Təsirli və təsirsiz feillərin tədrisi tarixi və digər mövzularla əlaqəsi

Azərbaycan dilçiliyində feillərin, feilə məxsus kateqoriyaların tədqiqi məsələsi. Dilçilərin mülahizələrindəki fikir müxtəlifliyi və mübahisələr. Təsir kateqoriyasının mahiyyəti, əhatə dairəsi, feildə yeri. Bunun leksik-semantik, morfoloji-sintaktik və üslubi qanun və məsələlərlə bağlılığı. Təsir kateqoriyasında bu göstərilmiş sahələrin yeri və payı.

Təsir kateqoriyasının uzun müddət tədqiq obyektindən kənarda qalması, onun növ kateqoriyası ilə eyniləşdirilməsi, qarışdırılması halları.

Təsirli və təsirsiz feillərin dəqiq müəyyənləşdirilməsinin nəzəri və praktik əhəmiyyəti, tələbə və şagirdlərin bu mövzunu çətin qavrama səbəbləri.

Təsirli və təsirsiz feillərin digər mövzu və məsələlərlə əlaqəsi, qrammatik xüsusiyyətləri, quruluşca növləri, ismin, sifətin, zərfin, sayın, əvəzliyin leksik mənası, feil düzəldən şəkilçilərin mənşəyi, ismin halları, tamamlıq, idarə əlaqəsi, feilin məcazi məna alıb-almaması, feilin omonim, sinonim, antonim və çoxmənalılıq xüsusiyyətləri, tarixən hansı inkişaf yolu keçməsi, hansı üslubi məqamda işlənməsi və sairə ilə bağlı olduğunu müəyyənləşdirməyin əhəmiyyəti.

Feilin quruluşunda, onun leksik-semantik inkişafında baş verən dəyişikliyin təsir məsələsində rolu.

Təsirli və təsirsiz feillərin quruluşca 3 yerə (sadə, düzəltmə, mürəkkəb) bölünməsi.

Sadə feillərin, əsasən, bir və ikihecalı, bəzilərinin isə üçhecalı olması.

Birhecalı feillərin *(asmaq, baxmaq, qazmaq, döymək, yaymaq)* ikihecalı *(ağrımaq, bəzəmək, böyümək, qorumaq, oxumaq)* və üçhecalılarla *(düymələmək, alazlamq, səndələmək)* nisbətən daha qədim tarixə malik olması. Bu haqda dilçilərin fikirləri. İkihecalı və üçhecalı feillərin sonradan formalaşması, bunların tarixən ya düzəltmə (qarğamaq,qurşamaq, (qur)bel(şa-maq), gətirmək (gəl-tir-mək), ya da mürəkkəb (aparmaq), (al var, al par, al bir-al get), inləmək (ün eləmək, in eləmək) və s. olması söz köklərinin təsir məsələsində oynadığı rol.

Tarixən söz kökünə və ya söz əsasına əlavə olunmuş səs və şəkilçi qatlarının feilin semantikasında əmələ gətirdiyi dəyişiklik.

**1.** *oy-a-n-maq, oy-a-t-maq, ay-ı-t-maq, ay-(ı)-n-ı-maq, ov-u-n-maq, ov-u-t-maq (o-a, v-y); gic-i-t-mək, gic-i-ş-mək, ya-t-a-la-maq, ya-s-a-la-maq, pör-t-mək, pör-ş-mək; uz-a-n-maq, uz-a-t-maq, dol-a-n-maq, dol-a-ş-maq; dır-ma-n-maq, dır-ma-maq, dır-ma-t-maq; qıv-rı-x-maq, qıv-rı-l-maq, qıv-rı-t-maq; dar-a-n-maq, dar-a-ş-maq; dar-ı-ş-maq.*

**2.** *tər-pə-n-mək, tər-pə-ş-mək, tər-lə-t-mək, bü-r-ü-ş-mək, bü-k-mək, bü-z-ük-mək, bü-z-üş-mək; is-i-n-mək, is-i-t-*

*mək, is-/i-n/-mək, uy-u-n-maq, uy-u-ş-maq/, uy-u-t-maq, uy-u-x-maq, yar-a-n-maq, yar-a-şmaq, yar-at-maq, yar-i-ş-maq, yar-ı-n-maq, yar-ı-tımaq, sağ-maq, sıx-maq, sığ-maq, sı-ğ-a-maq, sı-x-ca-la-maq, sı-ğı-ı-n-maq, sı-ğı-ı-ş-maq, si-v-i-r-mək, si-v-l-mək, si-v-i-ş-/mək, si-v-/i/r-n-mək, si-v-/i/r-i-ş-mək, (f-x-v), qar-t-ı-maq, qar-a-maq, qar-ı-maq, qar-ıx-maq, qar-ı-ş-maq, qar-ğa-maq, qar-ğı-maq, sars-ıl-maq, sars-ı-n-maq, sars-ı-tımaq və s.*

Təsirli və təsirsiz feilləri müəyyənləşdirməkdə bu məsələnin (yuxarıda göstərilən dəyişikliyin) mütləq nəzərə alınması.

## SADƏ FEİLLƏRDƏ TƏSİRLİK VƏ TƏSİRSİZLİK

### 1. Birhecalı sadə təsirli və təsirsiz feillər

1. Saitlə başlayıb samitlə qurtaran və tərkibi iki səslə *(s-sm; at-maq, aç-maq, ax-maq, ək-mək, it-mək, ov-maq)* ibarət olan feillərdə təsirlik və təsirsizlik.

2. Saitlə başlayıb samitlə qurtaran və tərkibi üç səsdən *(s-sm-sm; art-maq, ört-mək, ölç-mək)* ibarət olan feillərdə təsirlik və təsirsizlik.

3. Samitlə başlayıb saitlə qurtaran və tərkibi iki səsdən *(sm-s, de-mək, ye-mək, yu-maq)* ibarət olan feillərdə təsirlilik və təsirsizlik.

4. Samitlə başlayıb samitlə qurtaran və tərkibi üç səsdən *(sm-s -sm; bat-maq, bil-mək, bur-maq, qaz-maq, qon-maq, duy-maq, yat-maq, çal-maq, sol-maq və s.)* ibarət olan feillərdə təsirlilik və təsirsizlik.

5. Samitlə başlayıb samitlə qurtaran və tərkibi dörd səsdən *(-sm- s –sm-sm; qalx-maq, qarp-maq, qars-maq, qart-maq, qırp-maq, qorx-maq, dart-maq, dürt-mək, gərt-mək, yırt-maq, pörş-mək, pört-mək, çırp-maq, çırt-maq və s.)* ibarət olan feillərdə təsirlilik.

Birhecalı feillərin təsirli olub-olmaması işində hecanın sonundakı samitin rolunu yoxlamağın zəruliliyi.

## İKİHECALI SADƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR

1. Kök ilə şəkilçi *(yaxud kök ilə ona artırılan söz)* tam qovuşan ikihecalı sadə feillərdə (*ağnamaq, ağrımaq, aramaq, bəzəmək, bulamaq, qaşımaq, qınamaq, eləmək, ərimək, ərinmək, irişmək, oxumaq, oturmaq və s.)* təsirlilik və təsirsizlik.

2. Kök və şəkilçi *(yaxud kök və ona artırılan söz)* qaynayıb-qovuşma prosesində olanlar:

a) Kök və şəkilçi *(yaxud kök və ona artırılan söz)* tam qovuşma prosesinə yaxın olan ikihecalı sadə feillərdə *(addamaq, ayırmaq, axsamaq, axtarmaq, bağırmaq, barışmaq, bələmək, boyamaq, qaytarmaq, qayıtmaq, qalamaq, qımzamaq, qarışmaq, döşürmək, inanmaq, istəmək kürümək, əgtirmək, gə-tir-mək, gəmirmək, gizləmək, götürmək, gəl-götür, gəl-tir-mək, gəmirmək, gizləmək, götürmək, perikmək, porsumaq, sarımaq, sürüşmək, sümsünmək, talamaq, dalamaq, uğunmaq, unutmaq, çevirmək, və s.)*

b) Kök və şəkilçi (yaxud kök və ona artırılan söz) tam qovuşma prosesinə yaxın olan ikihecalı sadə feillərdə *(aynımaq, aldanmaq, aldatmaq, anlamaq, andırmaq, böyümək (boy), bürümək, qabarmaq, qavramaq, qadamaq, qaynamaq, qapamaq, qadamaq, qırışmaq, qovuşmaq, qorumaq, qurtarmaq, dayanmaq, daramaq, danışmaq, dinləmək, diləmək, düşünmək, yaramaq, göstərmək, oyanmaq, oxşamaq, öskürmək, söyləmək (sö) suvarmaq, süpürmək, təpinmək, calamaq (çalmaq və s).* təsirlik təsirsizlik.

## *ÜÇHECALI FEİLLƏRDƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR*

Üçhecalı feillərin dilimizdə azlığı, köklə ona artırılmış hissələrin birikmə, bitişmə prosesində olması, hələlik tam qovuşmaması, bəzisinin *təsirli (gəvələmə, yamsılamaq, alazlamaq, yomalamaq, adaxlamaq, bəstələmək bəzisinin təsirsiz inildəmək, səndələmək)* olması.

## *DÜZƏLTMƏ FEİLLƏRDƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR*

Azərbaycan dilində əsas nitq hissələrinə aid sözlərin feilin təsirli olub-olmamasında rolu.

Dilimizdə 50-dən çox feil düzələn şəkilçinin varlığı bunların rəngarəng quruluşu, rəngarəng çalarlara malik olması.

Düzəltmə feillərdən bir qisminin təkrarən feil düzələn şəkilçilər qəbul etməsi *(sıx-ca-la-maq, çal-xa-la-maq, dol-ux-su-n-maq, sür-k-lə-mək və s.)* səbəbləri və təsir məsələsində bu şəkilçilərin rolu.

Azərbaycan dilində *-la, -lə, -da//-ta, də///-tə, -a, -ə, -e, -ı, -i, u, -ü, -ar, -ər; -sa, -sə; -sı, -si, -su, -sü; -na, -nə,; -ırğa; -irgə; -ra, -rə, -rə, -ri, -qla, -qlı, -klə, -qır,-xır, xur; -ür* şəkilçiləri ilə düzələn feillərin bir qisminin təsirli *(qıfıllamaq, batalamaq, ovuclamaq, bağlamaq, təmizləmək, tapdalamaq, ələmək, tixamaq, qazımaq, doğramaq, sürümək, otarmaq, quvarmaq, qapsımaq, əsirmək, sürükləmək, yadırğamaq, hovxurmaq, üfürmək)*, bir qisminin isə təsirsiz *(badalamaq, uçuqlamaq, gecələmək, sərinləmək, toxtamaq, yaşamaq, bərkimək, ağarmaq, bozarmaq, közərmək, susamaq, qəribsəmək, qaxsımaq, əsnəmək, göynəmək, daşırğamaq, çiyrimək, oynamaq, asqırmaq, hıçqırmaq, hönkürmək)* olması bu məsələdə müstəsna hallar və bunu doğuran səbəblər.

*-la, -lə; -ı, -i, -ü,; -sı, -si, -su, -sü* və sair bu kimi şəkilçilərlə feildən düzələn feillərin təsirli olmasının əsasən, söz kökündən feilin leksik mənasından asılı olması.

Dilimizdəki *–lat, -lət; -alə, -alə; -malə, -mələ; -dala, -tala, -dələ, -tələ; -marla, -arla; -xa, -xala; -gə, -gələ; -qa, -qala; -ca, -cala; -imsə* şəkilçiləri ilə düzəlmiş fellərin təsirli olması (aşıqlatmaq, dərinlətmək, naziklətmək, qovalamaq, eşələmək, silkələmək, cızmalamaq, yontalamaq, basmarlamaq, qamarlamaq, ovxalamaq, övkələmək, (hövləkəmək, sürükləmək, ulğalamaq, sıxcalamaq, mənimsəmək) bu məsələdəki müstəsna hallar və bunu doğuran səbəblər.

-alə, *-alə; -malə, -mələ; -dala, -tala, -dələ, -xa, -xala; -kə, -ulda, üldə,; -al, -əl; -sın,*
*-sin, -sun, -sün; -ümsə, ımsan, -imsin, -ımsın; -an, -ən; -qan, -qun; -xan; -s, -aş, -əş; -ış –iş, -uş, ü; -xul; -nux; -əzi* şəkilçiləri ilə əmələ gəlmiş feillərin təsirsiz olması (*maraqlanmaq, açıqlanmaq, şiddətlənmək, xırıldamaq, düzəltmək, çoxalmaq, oxutmaq; gecikmək, sınıxmaq, sadalamaq, düzəltmək, vaysınmaq, doluxsunmaq, gülümsəmək, alımsınmaq "alınsınmaq", gülümsənmək, uldunmaq, yayxanmaq, vurnuxmaq, öləzimək),* bu cəhətdən müstəsna hallar və onun səbəbləri. Bu şəkilçilərdən bir qisminin tərkibində olan *"l", "ş", "n", "m", "x", "k"* ünsürləri ilə feilin məchul, qayıdış, qarşılıq-müştərək növünü əmələ gətirən şəkilçilərin (təsirli feillərin təsirli hala salan şəkilçilərin) tərkibindəki *"l", "ş", "n",* ünsürlərinin əlaqəsi bunların mənşəcə yaxınlığı, həmçinin –lat şəkilçisinin tərkibindəki *t* ünsürünün təsirsiz feili təsirli edən *"t"* şəkilçisi və icbar növ şəkilçisinin tərkibindəki *–d* ilə əlaqəsi.

Düzəltmə feillərin təsirli olub-olmamasında sözün hansı nitq hissəsindən olması, söz köklərinin hansı leksik mənaya, hansı xüsusiyyətə malik olmasının rolu.

Düzəltmə feillərin təsirli-təsirsiz olmasının, əsasən, söz kökündə, bəzən isə şəkilçidən şəkilçinin sözə verdiyi məna çalarlığından asılı olması.

## MÜRƏKKƏB FEİLLƏRDƏ TƏSİRLİ VƏ TƏSİRSİZLİK

İki və daha artıq sözün birləşməsindən, köməkçi və yarımmüstəqil feillərin köməkliyi ilə əmələgəlmənin mürəkkəb təsirli-təsirsiz feillərin xarakterik xüsusiyyətləri. Sadə və düzəltmə feillərlə ekvivalent olan mürəkkəb feillərdə (dinlə-qulaq as, Anla-qan-başa-düş və s.) təsir kateqoriyasının ifadəsi.

***Eyni feilin bəzən təsirli, bəzən də təsirsiz olması məsələsi***

Eyni feilin həm təsirli, həm də təsirsiz olması fikrinin dəqiq olmaması məsələsi. Eyni fonetik qabığa malik olan bir sıra feillərin *(məsələn, aşmaq, atmaq, vurmaq, qoymaq, doğmaq, kəsmək, gətirmək, saymaq, səpmək, sevmək, sürmək, oxumaq, şatmaq, çəkmək, çırtmaq, çıxmaq, cırmaq, üzmək, yarpaqlamaq, işləmək, başlamaq, yellənmək, ətəkləmək, xamalamaq, döşəmək, səpələmək)* bəzən təsirli, bəzən də təsirsiz feil kimi çıxış etməsinin səbəbləri, bu məsələnin, əsasən, feilin omonim və çoxmənalı olmasından irəli gəlməsi.

Təsirli və təsirsiz feillərin qruplaşdırılmasında sinonim və antonim cərgələrin əhəmiyyəti. Təsirli feillərin təsirlilərlə *(söylə-de-danış, ara-axtar, anla-qan, yaz-poz* və s.) təsirsizlərin isə təsirsizlərlə *(Otur-əyləş, dayan-dur, əs-coş, özündən çıx, əl çək-itil, rədd ol, otur –dur, gəl-get, yıxıl-dur və s.)* cərgə təşkil etməsi.

***Təsirli feillərin təsirsiz, təsirsizlərin təsirli feilə çevrilməsi məsələsi***

Təsirli feillərin təsirsiz, təsirsizlərin təsirli feilə çevrilməsi məsələsində morfemlərin rolu.

Feili bağlama və feili sifət şəkilçilərinin quruluşu və formalaşması məsələsi.

Azərbaycan dilindəki feil köklərinin (və əsaslarının ) bir qisminin təsirli *(yaz, bil, de, gör, oxu, yoxla)* bir qisminin təsirsiz (*yat, otur, qaç, uç, sol, sön, köç, ax, qorx, coş və s.)* olması.

Təsirli feillərin təsirsiz feilə çevrilməsi üçün tərkibində *("l", "n", "ş"),* ünsürü (samiti) olan şəkilçilərdən *("-ıl, il, -ul, -ül; -ın, -in, -un, ün; iş, -iş, -uş, -üş; -aş, -əş, -ş"*) istifadə olunması *(yazılmaq, açılmaq, bilinmək, görünmək, deyilmək, dəyişmək, oxumaq, yoxlamaq, görünmək, atışmaq, vuruşmaq və s.)*

Təsirsiz feilləri təsirli etmək üçün tərkibində *t, d, r, z* ünsürü (samiti) olan şəkilçilərdən *(-t, -ıt, it, -ut, -üt; -dır, -dir, dur, dür; -dar, -dər; -ar, -ər; -ır, ur, ür; -ız, -iz, uz, üz, izdir)* istifadə olunması *(axıtmaq, əsnətmək, cürümək, bənzətmək, qoxaltmaq, anlatmaq, doldurmaq, çatdırmaq, utandırmaq, küsdürmək qondarmaq, döndərmək, çıxarmaq, qoparmaq, bitirmək, bişirmək, qalxızmaq, qorxuzmaq, əmzidirmək, çimizdirmək və s. )*

Təsirli feilləri təsirsiz, təsirsizləri təsirli feilə çevirməkdə obyektlə subyekt arasındakı münasibətdə *"l", "n", "ş"* samitli şəkilçilərin bir qütbdə, *t, d, r, z* samitli şəkilçilərinin başqa bir qütbdə çıxış etməsi səbəbləri.

### *Məsdər*

*Məsdər.* Məsdərin ikili-feil və isim xüsusiyyətləri. Məsdərlərin feilə və ismə məxsus bütün kateqoriyaları qəbul etməməsi.

Məsdər və feili isimləri əmələ gətirən formal əlamətlər və bunların omonimlik xüsusiyyəti. Məsdərin sintaktik vəzifələri.

### *Feili sifət*

### *Azərbaycan dilindəki feili sifətin tədqiq və tədrisi*

Həm feil, həm də sifət xüsusiyyətinə -ikili xüsusiyyətə malik olan feili sifətin *(yazılan məktub, oxunmuş əsər, bildiyim mövzu, gedəcəyim yer və s.)* uzun illər boyu müxtəlif terminlər altında ("İsmi fail", "ismi məfhum", "feillərdən yağma sifət", "feili sifət") şərh olunması. Bu mövzunun 1839-cu ildən 1924-cü illədək feil, 1924-cü ildən 1936-cı ilədək sifət, 1936-cı ildən 1938-ci ilədək feil, 1938-ci ildən 1959-cu ilədək sifət, bundan sonra isə feil bəhsinə daxil olunması. Bəzi dilçilərin türkologiyada (L.Budaqovun və Cumangözovun) feili sifəti ayrıca nitq hissəsi hesab etməsi,

feili sifət və onun ünsiyyətləri haqqında türkologiyada müxtəlif rəylərin mövcud olması.

## *FELİ SİFƏT ŞƏKİLÇİLƏRİNİN OMONİMLİYİ İŞLƏKLİK DAİRƏSİ VƏ XARAKTERİK CƏHƏTLƏRİ*

Müasir Azərbaycan dilində feili sifətlərin *–(y) –an, -ən; -mış, -miş, -muş, -müş; -dıq, -dik, -duq, -dük; –(y) –acaq, -əcək; –(y) –ası, -əsi; -malı, məli; -ar, -ər; -maz, -məz şəkilçiləri bunlardan –(y) –an, -ən; -mış, -miş, -muş, -müş; -dıq, -dik, -duq, –(y)- –acaq, -əcək* şəkilçilərinin feili sifət düzəltməkdə daha geniş imkanlara malik olması dilimizin müasir mərhələsində *-malı, məli; ar-, -ər; - maz, -məz* şəkilçilərinin həm feili sifət *(dağıdılmalı körpü, yazılmalı əsər, axar su, görünməz sahil),* həm də feildən düzəltmə sifət *(içməli su, gülməli söz, qaynar söz, çıxılmaz vəziyyət)* əmələ gətirə bilməsi. Bu formal əlamətlərini hal-hazırda keçid vəziyyətdə olması, bunların feili sifətdən sifətə doğru inkişafı, get-gedə sifət düzəltməyə meyl etməsi prosesi.

Feili sifəti əmələ gətirən şəkilçilərin omonimlik xüsusiyyəti *-mış, -miş, -muş, -müş*; *–(y) –acaq, -əcək; -ar, -ər;* şəkilçilərinin feilin *zaman (oxumuşdur, oxuyacaqdır, oxuyar), -(y) –ası, -əsi; -malı*-məli şəkilçilərinin feilin forma *(oxuyasıdır, oxumalıdır)* şəkilçiləri ilə omonim olması *- mış, -dıq; –acaq; -ar; -maz; -an* formal əlamətlərinin feildən isim *(bişmiş, Tapdıq, yanacaq, çapacaq, gələcək, çalası maya mənasında), açar, çıxar, dəyər, Yaşar, Yetər, Qorxmaz, Solmaz, Dönməz, qalxan, (ayran), mış, -miş, -muş, -müş;* formasının feili bağlama (*Yarışa bir gün qalmış...-Yarışa bir gün qalanda. Gecədən xeyli keçmiş //ötmüş...-Gecədən xeyli keçəndə //ötəndə...)* düzəldə bilməsi və formaca bir olub, müxtəlif vəzifə daşıyan bu şəkilçilərin, əsasən, eyni mənşədən təşəkkül tapması.

*-dıq, -dik, -duq, -dük* şəkilçilərinin feilin şühudi keçmiş zaman şəkilçisi ilə bir mənbədən təşəkkül tapması və bunun

düzəltdiyi feili sifətlərdə şahidlik çalarlığının olması *(oxuduğun kitab, çaldığın tar), -an, -ən* formasının hal-hazırda türk dillərinin çoxunda həm feili sifət, həm də feilin zamanını düzəltməyə xidmət etməsi.

Feili sifət şəkilçilərinin başqa türk dillərindəki forma və variantları. Bəzi fonetik dəyişmələr və müstəsna hallar da nəzərə alınmasa, feili sifətlərin türk dillərinin hamısında eyni şəkilçilərlə əmələ gəlməsi. Feili sifət düzəltməkdə bu formal əlamətlərdən bir qisminin bəzi dildə məhsuldar, bəzi dildə isə qeyri məhsuldar olması, -an, -ən şəkilçisinin isə türk dillərinin hamısında məhsuldar olması

Müasir Azərbaycan dilində -qan, *-kan, -kən, ağan, -əyən, -(y) –ıcı, -ici, -ucu,* - ücü şəkilçili feildən düzəltmə sifətlərin feili sifətə yaxın bir mövqedə durması. Bunların feili sifətə aid çalarlığı saxlaması *(qaçağan at-qaçan at, vurağan inək-vuran inək, küsəyən uşaq-küsən uşaq, çalışqan şagird-çalışan şagird, ayaqabı-sürüşkən ayaqqabı), yandırıcı maddə, qurucu əllər – quran əllər, çeşidləyən dəstə.*

Belə xüsusiyyətin *–ar, -ər, -r; -maz, -məz; -malı, -məli* şəkilçiləri ilə düzələn sifətlərdə daha qabarıq şəkildə gözə çarpması.

## FEİLİ SİFƏTİN FEİL İLƏ MÜŞTƏRƏK VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Əşyanın hərəkətlə bağlı olan əlamətini bildirən feili sifətin feil ilə həm müştərək, həm də fərqli xüsusiyyətlərə malik ola bilməsi.

### *Feili sifətlərdə hərəkət məzmununun olması*

Feili sifətin feildəki hərəkət məzmununu mühafizə edib saxlaya bilməsi və hərəkəti hökm yolu ilə deyil, əlamətləndirmək yolu ilə bildirməsi. Bunun nəticəsi olaraq

feillərin cümlədə xəbər, feili sifətlərin isə əsasən təyin rolunda çıxış etməsi *(kitab yazılmışdır-yazılmış kitab).* Hərəkət məzmununu saxladığı üçün feili sifətdə feilə məxsus bir sıra kateqoriyaların (təsir, növ, inkarlıq və s.) mövcudluğu.

### *Feili sifətlərdə zaman məzmununun olması*

Zaman kateqoriyası anlayışı (obyektiv və qrammatik zaman məsələsi). Feilin zaman və formalarının əlaqəsi və bu kateqoriyalar haqqında dilçilikdə yekdil rəyin olmaması. Həm zaman, həm də forma şəkilçilərində iki xüsusiyyətin birləşməsi. Bunlarda həm zaman, həm də işin hansı şəkildə çalarlığını bildirməsi -mış şəkilçisində nəql etmə *-dı* da qeyri-qətilik, ümumilik, şübhəlilik, *-ası* da lazımlıq, -malı da vaciblik, *-sa* da şərtlilik, *-a* da arzu olunmaq çalarlığı. Feilə məxsus bəzi digər kateqoriyaların formal əlamətində belə ikili xüsusiyyətin olmaması qanunauyğunluğu (şəxs şəkilçilərinin həm şəxs, həm kəmiyyət bildirməsi, eyni şəkilçilərin həm təsir, həm növ kateqoriyasına xidmət etməsi və s.)

Feili sifətin feilə məxsus zaman məzmununa malik olması və zamanı feil kimi konkret şəkildə bildirməməsi *asılmış barometr-barometr asılmışdır, görüləsi iş-iş görülmüşdür, həll edəcəyimiz məsələ-məsələni həll edəcəyik və s.*

Zaman bildirmək cəhətdən feili sifətlərin bir-birindən fərqlənməsi, hamısının eyni olmaması. Onu əmələ gətirən şəkilçilərin mənşəyindən, hal-hazırki mövqeyindən, feilin zaman və formalarını düzəldib düzəltməməsindən, hansı vəzifələri ifadə etməsindən və s. asılı olaraq bunların bir qismində zaman anlayışının qabarıq (*-mış, -acaq*), bir qismində *-dıq, -ası* birincilərə, başqa bir qismində *(-an, -malı),* ikincilərə digər bir qismində isə *(-ar, -maz)* üçüncülərə nisbətən zəif şəkildə özünü göstərməsi *–an, -ən* şəkilçisi feili sifətlətin hansı bildirməsi haqqında fikir müxtəlifliyi. Bu şəkilçili feili sifətlərin Azərbaycan dilində həm keçmiş (görülən işləri inkar edir; şumlanan yerlərə, tikilən evlərə komissiya baxacaqlar), həm də indiki (Divardan

boylanan uşağı görürsənmi?, Yırğalanan sığallanan o xanımlar) zaman məzmununa malik olması.

Keçmiş zamanı ifadə edərkən *–an* şəkilçisini -mış şəkilçisi ilə əvəz etməyin mümkün olması (Görülən) görülmüş iş, şumlanan//şumlanmış yer, tikilən //tikilmiş ev *-mış,-miş,-muş,-müş* şəkilçili feli sifətlərin keçmiş (tökülmüş maşın), *-dıq,- dik, -duq,*

*-dük* şəkilçiləri ilə yaradılanlar, əsasən, keçmiş (çiçək yığdığı, sünbül dəstələdiyi, quzu otardığı yer), *-acaq; -əcək; -ası; -malı; -məli*; şəkilçiləri ilə düzələnlərin gələcək zaman məzmununu ifadə etməsi (oxunacaq əsər, oxunası əsər, oxunmalı əsər), *-ar, -ər, -r;-maz, -məz* ilə əmələ gələnlərdə zamanın həddindən artıq ümumiləşməsi.

### Feili sifətin feilə məxsus təsir kateqoriyasını ifadə etməsi

Bu kateqoriyanı ifadə etmək cəhətdən feillərlə feili sifətlər arasında fərq olmaması. Feili sifətin təsirli olub-olmaması işində feili-sifət şəkilçilərinin rol oynaması (düşməni vuran əsgər, onları vuruşduran adam; onu duyacaq, anlayacaq şəxs döyünən ürək, yazılacaq məktub və s.).

### Feili sifətin feilə məxsus növ kateqoriyasını ifadə etməsi

Bu cəhətdən feili-sifət şəkilçilərinin iki yerə ayrılması.

Müasir Azərbaycan dilində *-(y)-an, -ən, -mış, -miş, -muş, -müş; -dıq, -dik, -duq, dük; -(y) -acaq, -əcək* feili sifət şəkilçilərinin feilin bütün növ şəkilçilərindən sonra gələ bilməsi *–(y) –ası, -əsi; -malı; -məli; -ar (ər, -r; -maz, -məz*) feili-sifət şəkilçilərinin isə feilin bütün növ şəkilçilərindən sonra gələ bilməməsi.

### Feili sifətin feilə məxsus inkarlıq kateqoriyasını ifadə etməsi

Bu kateqoriyanın ifadəsində feil ilə feili sifət arasında heç bir fərqin olmaması (yazılmış əsər-əsər yazılmışdır). İnkarlıq ifadəsində *-(y) -an, - mış, -miş, -muş, -müş; -dıq, -dik, -duq, -*

*dük;* şəkilçili feili sifətlərin daha geniş imkanlara malik olması *-mış,-miş* şəkilçili feili sifət inkar şəkilçisi qəbul *-ma, -mış, -məmiş* feili bağlamasına oxşaması (*Mən kitabı açmamış qapıdan girdi; O yerindən tərpənməmiş, qapıdan girdilər)* bu bunları fərqləndirən meyarlar.

***Feili sifətlərdə idarə***

Feili sifətin özündən əvvəl gələn isimləri, əsasən, feil kimi ifadə etməsi *(kinoya baxdım, kitabı oxudum, məktəbdə gördüm, şəhərdən gəldim, kinoya baxmış, kitabı oxumuş, məktəbdə gördüyüm, şəhərdən gələsi adam).* Təsirlik halda olan isimlərin yalnız təsirli, yönlük, yerlik, çıxışlıq halda olan isimlərin isə həm təsirli, həm də təsirsiz feili sifətlərlə idarə olunması.

Təsriflənən feillərin ismi dörd halda *(yönlük, təsirlik, yerlik, çıxışlıq),* feili sifətlərin isə sifətləri beş halda (*yönlük, təsirlik, yerlik, çıxışlıq və yiyəlik)* idarə etməsi *(onun gördüyü-görəcəyi iş).* Bu fərqin bəzi feli sifətlərin mənsubiyyət şəkilçisi qəbul etməsindən irəli gəlməsi.

Feillərdən fərqli olaraq feili sifətin sifətlərin idarə oluna bilməsi və bu xüsusiyyətin feili sifətin hallana bilməsindən irəli gəlməsi. İsmin yönlük, təsirlik, yerlik, çıxışlıq halda olmasını tələb edərkən bunun feili sifət tərkibi, yiyəlik halda olmasını tələb edərkən isə təyini söz birləşməsi əmələ gətirməsi. İdarəcilik baxımından feili sifətlərin bir-birindən fərqlənməsi, bu cəhətdən *–an, -mış, -dıq, -acaq* şəkilçili feili sifətlərin daha geniş imkanlara malik olması.

***Feili sifətlərdə tərz***

Feili sifətlərdə tərzin feillərdə olduğundan fərqlənməsi. Baxa-baxa qalan, donub –qalıb-donub qalan, səpələndi-səpələnən, döyündü-döyünən, çalxalandı-çalxalanan, eşələndi-eşələnən, çırpındı-çırpınan.

### *Feili sifətin zərflərlə işlənməsi*

*Zərflərin feili sifətlərlə işlənməsi.* Bu xüsusiyyətin əsasən feillərdəki kimi olması *(şagird axşam oxuyur-axşam oxuyan şagird, oğlan tez-tez oxuyur-tez-tez oxuyan oğlan. Qız gülü bir-bir yığdı-qızın bir-bir yığdığı gül; Pərdə aşağı enmişdi-aşağı enmiş pərdə).*

Zərflərin feildən əvvəl gələndə hərəkətin əlamətini, feili sifətdən əvvəl gələndə isə əlamətini bildirməsi.

Azərbaycan dilində -an, -mış, -dıq, -acaq şəkilçili feili sifətlərin digər şəkilçili feili sifətlərə nisbətən zərflərlə işlənmək işində daha geniş imkanlara malik olması.

### *Feili sifətin sifət ilə müştərək və fərqli xüsusiyyətləri*

#### *a) Feili sifətin sifət ilə müştərək xüsusiyyətlərə malik olması*

Əşya ilə bağlı olub onun keyfiyyət və əlamətini bildirdiyi üçün sifətin bir sıra xüsusiyyətlərini ifadə etməsi; sifət kimi əşyanın əlamətini bildirməsi, sifətin suallarına cavab olması, əlamətləndirdiyi sözdən əvvəl gəlməsi, cümlədə əsasən təyin olması (*sökük ev-sökülən ev, yorğun adam- yorulmuş adamlar, təmiz bağ-təmizlədiyi bağ, bilikli tələbə, bilinəcək hadisə, gözəl yer –gediləsi yer və s.)* İsimlə yanaşı işləndikdə hal və cəm şəkilçisini qəbul etməməsi, onun əlamətləndirdiyi sözün həmin şəkilçiləri qəbul etməsi *(məzmunlu əsər (əsər), əsərin, əsərə, əsəri, əsərdə, əsərdən).*

#### b) Feili sifətin sifət ilə fərqli xüsusiyyətlərə malik olması

Sifətdən fərqli olaraq əşyanın hərəkətlə bağlı olan əlamətlərini bildirməsi. Feili sifətlə feildən düzələn sifətlərin bir-birinə çox oxşaması: hər ikisinin feil kökünə müvafiq şəkilçilərin artırılması ilə düzəlməsi və sifətin suallarına cavab olması, təyin olunandan əvvəl gəlməsi, cümlədə, əsasən, təyin olması, termin yaxınlığı və s. *(sındırılan ağac, sınıq ağac,*

*soyudulmuş su, uçuq ev*). Belə oxşar cəhətlərə baxmayaraq onların bir-birindən fərqli xüsusiyyətlərə malik olması.

Feili sifətlə feildən düzələn sifətləri fərqləndirən meyarlar.

1. Feili sifət şəkilçilərini feilə artırdıqda feilin lüğəvi mənasının dəyişməməsi, feildən sifət düzəldən şəkilçiləri *(-ağan, əyən, -qan, -kən; -aq, -ək; -ğın; -kin; -qun, -ğun; -kin, -gün; -ıq, uq; ük; -ıcı,-ici, -ücü; -acaq, -cək; ınc, -inc, -unc, -ünc və s.)* feilə artırıldıqda isə feilin lüğəvi mənasını itməsi.
2. Feili sifətlərin hərəkət məzmununu mühafizə edib saxlaya bilməməsi.
3. Feili sifətin zaman anlayışını ifadə etməsi. Feildən düzələn sifətlərdə *(qorxaq adam, uçuq ev, döyüşkən ordu, qorxunc hadisə, vurağan inək)* belə bir xüsusiyyətin olmaması.
4. Feili sifətlərin feilə məxsus təsir kateqoriyasını saxlaya bilməsi, feildən düzələn sifətlərdə bu halın olmaması.
5. Feli sifətlərin növ kateqoriyasını ifadə etməsi *(yazılan, yazdırılan və s.)* feildən düzələn sifətlərin növ şəkilçilərini qəbul etməməsi *(sönük çıxış, qaçağan at, qızmar gün).* Feildən düzələn sifətlərin bir qismində *(vuruşqan, dalaşqan, döyüşkən, söyüşkən)* feilin bəzi növünə məxsus çalarlığın qalması.
6. Feili sifətlərin inkar şəkilçilərini qəbul etməsi, feildən düzələn sifətlərdə bu əlamətin olmaması *(oxunmayan əsər çalışmayan tələbə-çalışan tələbə, boğuq səs, qorxaq uşaq, solğun çiçək).*
7. Feili sifətin isimləri beş halda *(yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq),* feildən düzələn sifətin isə dörd halda *(yiyəlik, yönlük, yerlik, çıxışlıq*) idarə etməsi.
8. Feili sifət ismin təsirlik halda olmasını tələb edə bilməsi, feildən düzələn sifətlərin isə feillik xüsusiyyətini itirdiyi üçün sözü təsirlik halda idarə edə bilməməsi.
9. Feili sifətlərin öz ətrafına istənilən qədər izahedici söz toplaya bilməsi, feildən düzələn bu əlamətin olmaması.
10. Feili sifətlərin feildəki tərz xüsusiyyətini qismən mühafizə edə bilməsi, feildən düzələn sifətlərdə bu xüsusiyyətin olmaması.

11. Feili sifətlərin bir qisminin şəxs bildirməsi, feildən düzələn sifətlərin şəxs bildirməməsi.
12. Feili sifətlərin özündən əvvəl zərf qəbul etməsi. Feildən düzələn sifətin bu xüsusiyyətə malik olması.
13. Feili sifətin feilin bəzi formasına məxsus çalarlığı saxlaması *(deyilməli söz, görülən adam).*
14. Feili sifətlərin bəzi feili bağlamalarla birlikdə leksik (*utanıb-qızaran, atılıb-düşən)* və sintaktik *(büzülüb oturan uşaq, suyu açıb içən adam)* birləşmə əmələ gətirə bilməsi. Feildən düzələn sifətlərin belə xüsusiyyətlərə malik olmaması.
15. Feili sifət şəkilçilərinin ol, et, bil yarımmüstəqil feillərə qoşula bilməməsi (görülməli olan, cəlb edilmiş, qonaq elədiyi, bilmədiyi adam), feildən düzələn sifət şəkilçilərin bu feillərə artırıla bilməsi.
16. Feili sifətlərin düzəltmə feillərdən əmələ gələ bilməsi *(dalğalanan bayraq, tərləyən xəstə, sürmələnmiş tel, yuxulamış adam, sözləşdiyi şəxs, genişləndirilməli meydança, avtomatlaşdırılmış sənaye).* Feildən düzələn sifətlərdə, əsasən, belə bir xüsusiyyətin olmaması. Bu cəhətdən -ici şəkilçili düzəltmə sifətlərin müstəsnalıq təşkil etməsi *(qıcıqlandırıcı maddə, birləşdirici kran, zəhərləyici dərman).*
17. Feili sifətin sifətə məxsus dərəcə əlamətini *(ədatları)* qəbul edə bilməməsi, feildən düzələn sifətlərin isə bir qisminin bunu qəbul etməsi *(Ən yorğun, daha yorğun; lap yorğun, olduqca yorğun adam).*
18. Feili sifətin adlara məxsus *–lıq, -liq, -luq, -lük* şəkilçisini qəbul etməməsi, feildən düzələn sifətlərin bir qisminin isə bu şəkilçiləri qəbul etməsi *(qısqanclıq, durğunluq, küskünlük, yorğunluq, qaynarlıq, barışmazlıq, yaramazlıq və s.)*
19. Feili sifət şəkilçiləri feilə artırıldıqda feilin lüğəvi mənasını dəyişə bilmədiyi, feildən sifət düzələn şəkilçilərin isə feilin lüğəvi mənasını dəyişməsi.
20. Feili sifət şəkilçilərinin az, feildən sifət düzəldən şəkilçilərin isə çox olması və bunun səbəbləri.

## Feli sifətlərin substansivləşməsi

Feili sifətlərin sifətlər kimi substansivləşə bilməsi və substansivləşərkən ismə məxsus hal, kəmiyyət, mənsubiyyət və xəbərlik kateqoriyasının şəkilçilərini qəbul etməsi, buradakı müstəsna hallar və fərqli cəhətlər. Feili sifətlərin substansivləşərkən öz əsas vəzifəsini-təyin olmaq vəzifəsini dəyişməsi və mübtəda, xəbər, tamamlıq vəzifəsində çıxış edə bilməsi.

## Feli sifətlərin hallanması

Azərbaycan dilində -an, -ən şəkilçisi feili sifətlərin yardımçı vasitə olmadan substansivləşməsi (Axtaran tapar, Əkən biçər).

Feili sifətlərin ismin yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq hal şəkilçilərini qəbul etməsi və bu cəhətdən *–an, -ən; -dıq, -dik, -duk, -dük; -mış, -miş, -muş,* -müş; -acaq, -əcək şəkilçili feili sifətlərin daha geniş imkanlara malik olması *(Həyat, söylə sən kimsən?-Mən həyatı öyrənənin, bacaranın, alanın; Oxuduğunun məzmununu danış; İslanmışın yağışdan nə qorxusu; Həyatı duyana canım qurban: Qəlbindən keçəni de; Özün duyduğunu yaz; Gördüklərini söylə; Dəymişini qoyub kalını dərmə; Mahnı oxuyanda yaxşı səs olmalıdır. Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən və s.).*

*-an, -ən* şəkilçili feili sifətlər yerlik hal şəkilçisi qəbul edərkən yaranmış formanın –anda, -əndə feili bağlama şəkilçisinə oxşaması *(Kosmosa uçanda sağlam bədən olmalıdır-Qaqarin uçanda dostlar sevindi; Mahnı oxuyanda yaxşı səs olmalıdır-Bülbül oxuyanda hamı valeh olurdu).* Bunları fərqləndirmək üçün başlıca meyarlar:

a) həmin söz feili sifət olduqda –anda formasını hissələrinə ayırıb, hissələrin arasında cəm şəkilçisini *(-lar,-lər)* artırmağın mümkün olması uçanlarda, oxuyanlarda, feili bağlama olduqda bu formanı iki hissəyə ayırmağın mümkün olmaması.

b) həmin söz feili sifət olduqda onun (felin sifətin) əlamətləndirdiyi sözü bərpa etməyin mümkün olması *(Kosmosa uçan adamda, mahnı oxuyan adamda),* feili bağlamalarda isə bu xüsusiyyətin olmaması.

v) *–an, -ən* şəkilçili feili sifətin yerlik hal şəkilçisi qəbul edərkən kimdə?, *nədə-* sualına, *-anda, -əndə* şəkilçisi feili bağlamanın isə nə vaxt?, nə zaman? Haçan? Sualına cavab verməsi

c) *–an, -ən* şəkilçisi feili sifət yerlik hal şəkilçisi qəbul edərkən onunla ondan sonra gələn sözün arasında fasilənin az, həmin forma feili bağlamanı ifadə etdikdə feili bağlama ilə ondan sonra gələn sözün arasında fasilənin çox olması.

Feili sifətlərin cəm şəkilçisi qəbul etməsi (həyat quranlar, göz yaşı tökənlər, çiçək əkənlər, çox oxumuşlar, didərgin düşmüşlər, yaşadıqları ev, gedəcəkləri yer və s.) Cəm şəkilçisi qəbul etmək cəhətdən *–an, -ən; -dıq, -dik, -duq, -dük* şəkilçisi feili sifətlərin *–mış, -miş, -muş, -müş* şəkilçili feli sifətlərə, bunların da *–malı, -məli; -ası, -əsi, -maz, -məz* ilə düzələnlərə nisbətən daha geniş imkanlara malik olması. Azərbaycan dilində *-ar, -ər, -r* şəkilçili feili sifətlərin cəm şəkilçisini qəbul etməsi.

### Feili sifətlərin bəzisinin mənsubiyyət şəkilçisi qəbul etməsi

*-dıq, -dik, -duq, -dük; -acaq, -əcək* şəkilçili feili sifətin mənsubiyyət şəkilçisi ilə işlənməsi (tikdiyi bina, tikəcəyi bina), *-(y)-an, -ən, -mış, -mış, -muş, -müş* şəkilçili *-(y)-ası, -əsi, –malı, -məli; -ar, -ər -maz,* şəkilçiləri ilə düzələn feili sifətlərin mənsubiyyət şəkilçisi ilə işlənməsi. Substantivləşdikdən sonra *–an, -mış,* şəkilçili feili sifətlərin mənsubiyyət şəkilcisi qəbul edə bilməsi halı *(Yaman yeyənin olsun, yaman deyənin olmasın; Dəymişi qoyub, kalını dərir).*

Xəbərlik kateqoriyasına məxsus şəkilçiləri qəbul etmək işində feili sifətlərin eyni xüsusiyyətə malik olması.

-*an,-dıq* şəkilçili feili sifətlərin yardımçı vasitə olmadan, -*mış, acaq, ası, -əsi,* -malı şəkilçiləri ilə düzələnlərin isə yardımçı vasitənin köməyi ilə qəbul etməsi, -*ar* şəkilçili feili sifətin xəbər şəkilçisi qəbul etməməsi.

## Seçmə kurs üçün istifadə olunan ədəbiyyatın siyahısı

### Əsas ədəbiyyat

Heydər Əliyev, Azərbaycan Respublikasının prezidenti – "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman (Bakı, 18 iyun, 2001)

Heydər Əliyev, Azərbaycan Respublikasının prezidenti- "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" sərəncam (Bakı, 9 avqust 2001) Azərbaycan

Heydər Əliyev, Azərbaycan Respublikasının prezidenti- Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə fərman (02 yanvar 2003)

"Azərbaycan Respublikasının" Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu (Bakı şəhəri, 30 sentyabr 2002-ci il)

M.Hüseynzadə -Müasir Azərbaycan dili Bakı, 1954, 1963, 1973

S.Cəfərov - Müasir Azərbaycan dili, Bakı, 1972

Ə.Dəmirçizadə - Müasir Azərbaycan dili, Bakı, 1972

Ə.Dəmirçizadə - Azərbaycan ədəbi dilinin tarixi. Bakı,1967, 1979

B.Xəlilov- Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2000, 2007; II hissə, Bakı, 2003, 2007

## Əlavə ədəbiyyat
### Azərbaycan dilində


1. Axundov A. Seçilmiş əsərləri. II cilddə. I cild, Bakı "Elm və təhsil" 2012
2. Cəfərov C, Abdullayev.N. Müasir Azərbaycan dili. Bakı, 2004
3. Cəfərov S. Müasir Azərbaycan dili (leksika). Bakı, "Şərq-Qərb" 2007
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). Bakı, "Şərq-Qərb" 2007
5. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. II cilddə, Bakı "Elm" 2016
6. Hüseynzadə M. Müasir Azərbaycan dili (morfologiya). Bakı, "Şərq-Qərb" 2007
7. Hüseynzadə M. Dil və Poeziya. Bakı, "Elm" 2008
8. Hüseynov M. Şeirşünaslıqda dil sənətkarlığı. Bakı, "Elm" 2007
9. Verdiyev Z., Ağayev F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı, "Elm", 2019
10. Xalıqov F.R. Azərbaycan onomalogiyası. Bakı, 2010
11. Xəlilov B. Azərbaycan dilində feil. Bakı, "Adiloglu" nəşriyyatı, 2018, 224 səh.
12. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II cilddə, I c., Bakı, "Nurlan", 2003
13. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II c., Bakı, "Nurlan", 2003
14. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, "Nurlan", 2008
15. Xəlilov B. Müasir Azərbaycan dili (fonetika, orfoepiyaorfoqrafiya). Bakı, "Elm və təhsil", 2010
16. Xəlilov B. Müasir Azərbaycan dili (sintaksis). Bakı,2017
17. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (morfologiya). Bakı, "Elm və təhsil", 2014

18. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (sintaksis). Bakı, "Elm və təhsil", 2010
19. Məmmədov X., Cavadov Ə. Tabeli mürəkkəb cümlənin semantik-qrammatik xüsusiyyətləri. "Mütərcim", Bakı, 2000
20. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c, Bakı "Nurlan", 2003
21. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, "Bakı Universiteti nəşriyyatı" 2000
22. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, Araz, 2006
23. Mirzəyev H. Müasir Azərbaycan dilində feil, Bakı, 2006

**Mündəricat**

Mövzuların saat bölgüsü..........................................................6

Giriş.........................................................................................7

Mövzuların məzmunu...............................................................8

Ədəbiyyat...............................................................................35